● Vətən üçün doğulanlar

# Tərtərli qəhrəman əsgərlərin medalları təqdim olunmuşdur

**Tərtər Rayon Dövlət Rəmzləri Muzeyində rayon icra hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin birgə təşkilatçılığı ilə ərazilərimizin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərərək şəhidlik zirvəsinə yüksəlmiş tərtərli igidlərin ailələrinə və Vətən müharibəsi iştirakçılarına orden və medalların təqdimetmə mərasimi keçirilmişdir.**





Tədbirdə rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidlərin ailə üzvləri, qazilər, Qarabağ müharibəsi veteranları və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Əvvəlcə tədbir iştirakçıları ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər, sonra Azərbaycanın Dövlət Himni səsləndirilmişdir.

Tədbiri giriş sözü ilə açan Müstəqim Məmmədov şəhidlərimizin döyüş yoluna nəzər salmış, onların əsl vətənpərvər, qorxmaz, cəsur və yüksək nizam-intizamlı hərbçi olduqlarını bildirmişdir. Qeyd etmişdir ki, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimiz heç zaman unudulmayacaq, onların əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Sözünə davam edən natiq vətənə layiqli oğullar yetirdiklərinə görə şəhid ailələrinə, qazilərimizə minnətdarlığını bildirmişdir. Vətən müharibəsində qəhrəmanlıq göstərərək işğal olunmuş torpaqlarımızın azad olunmasında fərqləndiklərinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən təltif edilən hərbi qulluqçuları təbrik edən RİH-in başçısı şəhidlərimizə rəhmət diləmiş, qazilərimizə isə tezliklə sağlamlıqlarına qovuşmalarını arzulamışdır.

Ölkəmizdə ordu quruculuğu sahəsində aparılan islahatlardan da danışan M.Məmmədov Azərbaycan Ordusunun yaranmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərini qeyd edərək bildirmişdir ki, bu gün Ümummilli Liderin ordu quruculuğu siyasəti Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir: “Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz gücünü Vətən müharibəsində bir daha ortaya qoydu. Müzəffər Ali Baş Komandan və Müzəffər Azərbaycan Ordusu şanlı qələbə ilə Azərbaycan tarixində yeni səhifə açdılar. 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Qələbə bizim milli qürur mənbəyimiz, çox şərəfli tariximizdir. Bu Zəfəri xalqımıza yaşadan Müzəffər Ali Baş Komandan və rəşadətli Azərbaycan Ordusudur”.

Sonra Prezidentin sərəncamları ilə təltif olunmuş 11 tərtərli şəhidin medalları ailə üzvlərinə, 18 nəfər müharibə iştirakçısının isə medalları özlərinə təqdim olunmuşdur.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

Azərbaycan.- 2021.-21 oktyabr.- S.6.